*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 1*
*Səhifə: 165-172*

*ISSN: 2663-4406*

**UOT:** 801.7

Könül Cəbrayılova

# SƏMƏD VURĞUNUN FƏRDİ, İCTİMAİ MƏKTUBLARININ MƏZMUN XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər:** fərdi, ictimai, epistolyar, Səməd Vurğun
**Key words:** individual, public, epistolary, Samad Vurghun
**Ключевые слова:** личное, общественное, эпистолярный, Самед Вургун

Səməd Vurğunun fərdi-şəxsi, ictimai-ümumi məktublarının obyekti insan, insan həyatı və insan mənəviyyatı olduğundan onları cəmiyyətdən ayırmaq mümkün deyil. Onun məktubları həyatı, varlığı, təbiəti olduğu kimi, hərtərəfli dəyişmədə və inkişafda götürür.

Hərdən insanda belə bir fikir yaranır ki, guya o daxili dünyasını daha yaxşı bilir. Əslində bu yanlış təsəvvürdən başqa bir şey deyildir, çünki insana öz daxili həyatına nüfuz edə bilməsi ən çətin problemlərdəndir. Söhbət öz-özünü dərk etmək kimi son dərəcə mürəkkəb prosesdən gedir. Bu proses nə qədər dərinləşirsə, insanın öz daxili aləminə nüfuzetmə səviyyəsi də bir o qədər yüksəlir. Əksinə, burada baş verən hər bir səthilik və naşılıq, daxili həyatın dərindən öyrənilməməsi, labüddən gözlənilməz və düşünülməmiş hərəkətlərlə nəticələnir.

*"Yoldaş Cavadov!*
*21.6.38-ci il, Gülöyşə kəndi.*

Sizdən rica edirəm ki, Qəmbər Qurbanov yoldaşı pedtexnikuma qəbul edəsiniz. O, mənə söz vermişdir ki, öz təhsilini davam etdirəcək.
Sağ olun:

*Sizin Səməd Vurğun" [1, s.233]*

Humanist şair Səməd Vurğun bu ictimai məktubunda təqsirkarın bağışlanmasını mümkün hesab etmişdir ki, onun bağışlanması ilə cəmiyyətə heç bir zərər yetişməyəcəkdir. Bir çox məktublarında yersiz cəzanı cinayət və zülm kimi qiymətləndirən şair pis hərəkət və ya əməlləri cəmiyyətin mənafeləri əleyhinə olmayan təqsirkarların bağışlanmasını əxlaqilik, mərhəmətlilik və ədalətlilik hesab edirdi. Humanist şairin sadə insanlara bu mövqeyi heç vaxt dəyişməmişdir.

Tanınmış rus şairi Konstantin Simonov yazırdı: "O, insanlardan ayrılmaq istəmirdi, çünki onları çox sevirdi. Gedəndə də özü barədə yox, onlar haqqında düşünürdü.

Səməd gözəl şair, mərd insan və sədaqətli dost idi. O, həqiqi xalqlar dostluğunun, şairlər arasındakı dostluğun nə demək olduğunu çox gözəl bilirdi. Məhz buna görə də ölkəmizin hər yerində və onun hüdudları xaricində Səmədin çoxlu dostları vardı..." [1, s.173, 174].

Fəlsəfi-sosioloji ədəbiyyatda insanın daxili həyatı problemi kifayət qədər araşdırılmamışdır. Yalnız son illərdə ona elmi marağın artması meyli müşahidə olunur. Mövcud ədəbiyyatda burada iki sferanın olduğu bildirilir. Bu fikri bir qədər də dəqiqləşdirməklə göstərmək olar ki, birinciyə bilikləri, əqidəni, hissləri, tələbatları, qabiliyyətləri və məqsədlərini aid etmək olar. Bu sfera insanın

* Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.

daxili həyatının əsas çıxış nöqtəsi rolunu oynayır. İkincisində fəaliyyət prosesində insan onu əhatə edən dünyanı getdikcə daha dolğun dərk edir və özünün orada yerini daha aydın başa düşür. O, həyatı, onu əhatə edən gerçəkliyi nə qədər yaxşı bilirsə, onun seçimi də, öz məqsədlərini reallaşdırması da o qədər azad baş verir.

Görkəmli şairimiz Səməd Vurğun da biliyə, elmə, əqidəyə, hisslərə malik olduğu, yaradıcılığı və fəaliyyəti prosesində çətinliklərdən keçdiyi üçün nə etdiyini yaxşı bilib və doğru addım atmağı bacarıb. Bunu isə ancaq onun fərdi – şəxsi məktublarında görmək mümkündür:

*"M.Y.Vəkilova.*
*20 fevral 1928, Quba.*

Qardaşcığım! Məktubunu aldım. Oxuyub ziyadəsi ilə məmnun qaldım. Çağırışın əsridir... Əsrin gözəlidir. Mən əsrimizin, firqəmizin siyasətinə qarşı azca da olsa bədxah olmamışam və olmaq istəməm:

*Mən and içmişəm ki, bir də qələmim,*
*Gözəllərdən ilham almayacaqdır.*
*Peymanını pozan xəyal həmdəmim,*
*Yollarıma sayə salmayacaqdır.*

Əvət! Dünya siyasətinin vuruşduğu bir dövrdə mən qadın düşgünü qalmayacaqdım...

Buna şahid "Kommuna" adlı bir parçamdır. Xülasə, mən yeniyəm və bununla iftixar etməliyəm. Fəqət, bugünkü "yekrəng" ədəbiyyatın amansız bir düşməniyəm...

"İnqilab və mədəniyyət"dəki "Şairə" Əbdülbaqi Fövzünün mənə hücumudur. Cavabı da yazılmışdısa, dərcə verməyəcəyəm.

Artıq dedi-qodu əsri keçdi. Yazırsan ki, səkkiz marta aid yaz. İki dəfə yazmam nəyə lazım? Qubada yazdığımı göndərirəm. Yaxında "Gəncə" jurnalında dərc olunacaq birinci nömrəyə verdiyim "Əfsanə şairinə" adlı parça indidən hüsn-rəğbətlə qarşılanmışdır. Burada aktiv olaraq çalışacağam. İkinci nömrədə isə "Xəyal" adlı ən lirik və real parçanı verəcəyəm. (Bunu çox təvəqqe ilə istəyirlər).

Dükançıya olan borcunu bacım verdi. Deyir ki, vaxtım olmadığından tez-tez məktub yaza bilmirəm. "8 mart"ı "İnqilab və mədəniyyət"ə ver. Süleymana salam söylə. Mehdiyə de ki, məktub yazsın.

*Səməd.*

Mustafa qağam üzündən öpür. Bacım deyir ki, yığıb bu yaxında yumurta göndərəcəyəm. Bacarsan bir az pul göndər, borcumuz çoxdur" [2, s.419].

S.Vurğun rəsmi, ictimai məktublarında həyata fəlsəfi münasibət, nikbinlik onu digər şairlərdən fərqləndirən əsas yaradıcılıq xüsusiyyətidir. Maraqlıdır ki, bu onun bir çox fərdi – şəxsi məktublarında da özünü büruzə verir:

*"Bakı, Osman Sarıvəlliyə.*
*1952-ci il, Kislovodsk.*

Deməк istədiyini başa düşdüm... Kefini pozma, vətən qardaşı. Sən məsləhət bilirsənsə, deməli, həmin gün ordayam. Bizdə sizdəki kimi deyil, göyün üzü açıq, dağlar da gülün-çiçəyin içində. Uşaqlar da lap yaxşıdırlar. Öpürəm.

*Səməd" [1, s.274].*





Elə dost var ki, ona inanır, ondan heç nəyi gizlətmirsən. O, sizin yanınıza xəbərdarlıq etmədən həm xoşbəxt, həm də qəmli günlərinizdə gəlir. Onun gəlişi sizi həmişə sevindirir. Siz onunla sevinci və qəmi bölüşdürməyə hazırsan, onun ağıllı, ürəkdən gələn məsləhətlərini dinləmək istəyirsən. Belə dostsuz həyat bəzən ağır və cansıxıcı olur. Səməd Vurğunun da belə bir dostu olmuşdur və bu Azərbaycanın tanınmış şairi Osman Sarıvəllidir. Şairin fərdi – şəxsi məktublarının bir qismi də Osman Sarıvəlli ilə bağlıdır.

Bəzi insanda maddi imkanların artması müəyyən əxlaqi-estetik problemlər doğurur. Lakin maddi imkanların yüksəlməsi, maddi həyat şəraitinin yaxşılaşması adamların əxlaqi şüurunu, estetik hiss və təsəvvürlərin yetkinliyini hamar yolla formalaşdırmır. İnsanların yaşayış tərzinin, güzəranının sağlam mənəvi-estetik tələbatla məqsədyönlü əlaqələndirilməsi şüurun, düşüncə tərzinin müsbət istiqamətdə inkişafına real və əlverişli zəmin yaradır. Səməd Vurğun maddi imkanlarının artması müqabilində də heç vaxt sadə dostlarını yaddan çıxarmamış, onların qeydinə qalmağa çalışmışdır:

*"Ramiz Məmmədzadəyə.*
*1952-ci il.*

Salam, komsomol!
İnadkarlıq etmə. Dediklərimi yerinə yetir. Sizə yenə baş çəkməyə gələcəm.

*Səməd Vurğun" [1, s.277].*

Tanınmış tədqiqatçı Şəmistan Nəzirli yazır: «1953-cü ilin mart ayında Səməd Vurğun haqqında oçerk yazmağa gələn moskvalı jurnalist Georki Osipov şairin yazı stolunun üstündə çoxsaylı məktubları gördükdən sonra onların arasında belə bir söhbət olmuşdur:

"- Siz öz oxucularınızla yazışırsınızmı?

- Yazışıram, – deyə Səməd Vurğun cavab verdi və stolun üstündə yığın-yığın düzülmüş böyük bir məktub bağlamasını əlilə göstərdi.

- Siz bu məktublarla tanış olmağa icazə verərdinizmi, onlar mənə oçerk üçün lazım ola bilər. Bir neçə gündən sonra onları sizə qaytararam.

Səməd Vurğun dodaqaltı gülümsəyərək:

- Buyurun, götürün, – dedi. Lakin itirməyin. Bunları xalq yazır. Onların bəzilərinə mən hələ macal tapıb cavab verə bilməmişəm" [1, s.10].

Səməd Vurğunun fərdi – şəxsi məktublarında şəxsiyyətin, insanın taleyinin və həyatının ön plana çəkilməsi təqdirəlayiq hal hesab olunmalıdır. İnsan S.Vurğun üçün ən uca zirvədə duran varlıqdır. O, cəmiyyətin ümumi tərəqqisini insansız təsəvvür etmir. Ona görə də insanın əmin-amanlıqda yaşaması, lazımi həyat şəraitinə malik olması şairin idealı idi:

*"Leyla xanım Vəkilovaya.*
*13 may 1943-cü il.*

Əziz Leyla!
Xavər xalandan və Səməd əmindən bu gül dəstəsini qəbul et. Sənə balet sənəti dünyasında böyük nailiyyətlər arzu edirəm.

*Səməd Vurğun" [1, s.248].*

Səməd Vurğun məktublarının poetik normaları indi də köhnəlməmişdir. Onlar şairin bədii yaradıcılığın təbiətini düzgün dərk etməyə, həmişə canlı və əhəmiyyətli olan bir sıra nəzəri problemlə-

rinə doğru cavab tapmağa kömək edir. Hər cür sünilik, bayağılıq, fikirsizlik və dumanlı mübhəm simvolika, hətta onun fərdi və şəxsi məktublarına belə yaddır. Onlar aydın, parlaq və mənalı obrazlılığı sevir, insanın sağlam duyğularını oxşayır:

*"Xavər xanım Vəkilovaya.*

3 fevral 1942-ci il. Moskva şəhəri "Moskva" mehmanxanası, otaq 1111.

Əzizim Xavər, öpürəm səni.

Mehdi yola düşdü. Məndən nigaran olmayın. Moskvanın vəziyyəti olduqca yaxşıdır. Ancaq mən Bakıdan çıxandan bəri nə sən, nə də uşaqlar yadımdan çıxmır. Xüsusən, Yusif hər gün gözümün qabağında durur. O, bir az zəif idi. Bilmirəm indi necədir?

Mən ayın 5-6-da buradan çıxacağam. Ona qədər burada mənə tapşırılan işləri yazıb qurtarmalıyam. Gələndən sonra ətraflı danışaram. Sənə pul lazım olsa, ya Kabakovdan, ya da Bulatovdan telefonla istə. Utanmaq lazım deyil, çünki sən öz pulunu istəyirsən. Mən qayıdana kimi uşaqları kökəltsən, sənə bəxşeyiş alacağam.

Öpürəm səni, Yusifi, Aybənizi, Vaqifi, nənəni. Məndən hamıya salam söylə.

*Sənin Səməd Vurğunun" [2, s.87].*

Fərdiliyi şərtləndirən amillərdən biri onun ümumi bir inkişaf prosesində götürülməsi zərurəti ilə əlaqədardır. Yaradıcılıqda fərdilik, özünəməxsusluq tədricən yaranan və inkişaf edən bir anlayış olduğu üçün ildən-ilə, əsərdən-əsərə inkişaf edib formalaşır. Həqiqi sənətkar da həmişə hərəkətdə və tərəqqidədir.

Gürcü ədəbiyyatşünası Georgi Lomidze yazırdı: "Səməd Vurğun geniş hiperbolik səhnələr, lövhələr yaratmağa daha çox meyil edir. Onu böyük insan ehtirasları, onların güclü mübarizəsi cəlb edir.

Səməd Vurğun əfsanəvi Fərhad kimi insan həyatının nəhəng qayalarını parçalayır, onları öz çiyninə alıb asanlıqla aparır. S.Vurğunun romantizmi daima axtaran, döyüşən, mübarizə aparan fikir romantizmi... böyük və geniş şəkildə xarakter romantizmidir" [1, s.191].

Səməd Vurğunun fərdi yaradıcılıq tərzi real həyatın özündən gəlir. Onun təkrarolunmaz rəngarəngliyi sənətdəki ifadəsinə çevrilir. Üslub yaxınlığından fərqli olaraq fərdi yaradıcılıq tərzlərinin yaxınlığı və bənzəyişi sənətdə yeknəsəqliyə, kor-koranə təkrarlara və köçürmələrə gətirib çıxaran qeyri-bədii bir hal sayılır.

Səməd Vurğun klassik irs və müasir ədəbi həyatla bağlı olan bir sənətkar olmuşdur. O, dünya ədəbiyyatı xəzinəsinin dəyərli nümunələrindən öyrənməyə çalışmış, Yaxın Şərq klassik ədəbiyyatının ənənələrini mənimsəmiş və öz yaradıcılığında bu ədəbiyyatın mütərəqqi ideyalarından bəhrələnmişdir. Klassik irsə möhkəm bağlı olmaqla bərabər, o, novator şairdir. Müasir şeirin inkişafında da müsbət rolu danılmazdır. Səməd Vurğun ölkəsinin, xalqının taleyi ilə bağlı olan vətənpərvər, beynəlmiləlçi, humanist bir sənətkardır. Şairin vətənpərvərliyi, beynəlmiləlçiliyi hətta onun fərdi – şəxsi məktublarında da dərin kök salmışdır:

*"Xavər xanım Vəkilovaya.*
*10 oktyabr 1942-ci il. Şimali Qafqaz cəbhəsi, Qudermes şəhəri.*

Əzizim Xavər! Biz sağ və salamat olub ordu hissələrimizə kömək göstəririk. Bizdən nigaran qalmayın. Beş-altı gündən sonra görüşərik. Yoskadan nigaranam. Ona yaxşı qulaq as. Öpürəm səni və balalarımı.

*Sənin Səməd Vurğunun" [3, s.88].*

Səməd Vurğun müasir dünya ədəbiyyatının iftixarıdır" [1, s.165].





Səməd Vurğunun insan təvazökarlığı ilə bağlı ictimai – ümumi məktubları təkcə adi insanlara deyil, dövlətin başında duran və insan cəmiyyətini idarə edən şəxslər üçün də eyni dərəcədə əhəmiyyət kəsb edir. Şübhəsiz ki, insanlarda qəzəb hissinin müalicə olunub aralarında mehribançılığın yaradılması, onların şöhrətpərəstlikdən uzaq olması ilk növbədə, cəmiyyətin ahəngdar şəkildə idarə olunmasının zəruri şərtlərindən biridir. Onun bu səpkidə yazdığı ictimai məktublardan biri də məktəb direktoru İmran Əbilova ünvanlanıb:

*"İmran Əbilova.*
*23 oktyabr 1952-ci il.*

Hörmətli yoldaş İmran Əbilov!

Məktubunuzu aldım, çox şad oldum. Sizə və yoldaşlarınıza səadət və müvəffəqiyyət arzu edirəm. Məndən məktəbinizin müəllimlərinə xüsusi salam yetirməyinizi xahiş edirəm.

*Səməd Vurğun" [1, s.278].*

Mənəvi cəhətdən daha da təkmilləşmək, ümumbəşəri mədəniyyətin zirvəsinə ucalmaq şəxsiyyətin hərtərəfli inkişafının obyektiv meyli, zəruri tələbidir. Bu cəhət adamların bədii-emosional mədəniyyətə yiyələnməsini həyatı zərurətə çevirir. Yüksək fərdi bədii-estetik keyfiyyətlərə malik olmaq insana məzmunlu, mənalı yaşamağı təlqin edir, onun mənəvi nüfuzunu yüksəldir, fəaliyyəti üçün geniş meydan açır.

Bu, Azərbaycanın xalq yazıçısı İlyas Əfəndiyevin Səməd Vurğun haqqında dediyi sözlərdir: "Onun bütün hərəkətlərində təbii ləyaqət var idi. Onun yumorunda, zarafatlarında xalqdan gələn təbiilik vardı.

Onda əsl beynəlmiləlçi humanizm vardı, yəni Vurğun geniş – ümumbəşəri miqyasda düşünürdü.

Səməd Vurğun ədəbiyyatımızın böyük istedadlı nümayəndəsi olmaqla bərabər nadir bir şəxsiyyət idi. Yüksək insani duyğulara, böyük ürəyə malik idi. Sözü bir, özü bütöv adam idi. İnsanların həmişə yaxşı cəhətlərini görməyə çalışırdı" [1, s.198].

Səməd Vurğuna qədər Azərbaycan ədəbi sənətkarların qiymətli fikirləri, ümumiləşdirmələr milli baxışın yaranması üçün zəngin və qiymətli bir zəmin olmuşdur. Digər tərəfdən, belə dünyagörüşünün yaranmasında Səməd Vurğunun həyata, cəmiyyətə, sənətə münasibəti, dövrün ictimai-siyasi və iqtisadi şəraiti də mühüm rol oynamışdır. Səməd Vurğundan sonra XX əsrin axırlarında və XXI əsrin əvvəllərində ictimai fikir tarixi isə artıq milli dünyagörüşünə əsaslanmış, onun ənənələrini davam və inkişaf etdirmişdir.

Azərbaycanın Xalq yazıçısı Əli Vəliyev deyirdi: "...Səməd Vurğunu yaxından tanıyanlar onun sadəliyinə, sədaqət və səmimiyyətinə vurulurdular. Yazdıqları hamının ürəyindən xəbər verdiyi kimi, şəxsiyyəti də təqlidə layiq idi. Sözübütövlük, dostluqda möhkəmlik, Vətənə, xalqa hədsiz sədaqət, şair və sənətin daha da tərəqqi və inkişafı yolunda yorulmazlıq Səməd Vurğunu el arasında əlçatmaz zirvələrə qaldırırdı.

Səməd Vurğun elə bir istedaddır ki, heç zaman unudulmayacaq. Səməd Vurğun elə bir qüdrətli sənət sahibidir ki, həmişə ürəklərdə yaşayacaqdır.

Səməd Vurğun deyəndə müasir Azərbaycan ədəbiyyatının bayraqdarı nəzərimizdə ucalır. Səməd Vurğun deyəndə sadə, rəvan dilli, xalq həyatının dərin tərcümanı, el ağsaqqalı, camaatın dilbiləni yada düşür. Səməd Vurğun deyəndə xalis, dürüst, inandırıcı, qüsursuz, modasız Azərbaycan şairi məclisimizin yaraşığına çevrilir.

Gələcək nəsillər Azərbaycan şeirinin tarixini öyrənmək istəyəndə mütləq Səməd Vurğunun kitablarına müraciət edəcəklər. Nizami ilə Füzulini, Nəsimi ilə Xətaini, Sabirlə Zakiri, Vaqiflə Natəvanı yaxşı başa düşmək üçün Səməd Vurğunun dili açar olub bütün kilidlərə düşəcəkdir.

Səməd Vurğun Azərbaycan xalqının milli vüqarıdır. Səməd Vurğun Azərbaycan şeirinin fəxridir. Səməd Vurğun Azərbaycan incəsənətinin saf və büllur aynasıdır" [1, s.195].

*Azərbaycan K(b)P MK M.C.Bağırov yoldaşa.*
*12 may 1948, Bakı.*

Bu yaxınlarda Moskva Dövlət Bədii Ədəbiyyat Nəşriyyatı mənim "Seçilmiş əsərləri"min bircildliyini buraxmışdır. Bircildliyə 1935-ci ildə yazdığım "26-lar" da daxil edilmişdir.

...Göründüyü kimi, bu yolda mənim poemamdan Azərbaycan xalqının şanlı oğlu yoldaş Əzizbəyovun obrazı büsbütün çıxarılmışdır. Elə güman etmirəm ki, əsərimizin belə vicdansızcasına təhrif edilməsi təsadüfən baş verib. Əgər, hətta, bu, tərcüməçinin günahı üzündən baş vermişdisə, kitabın redaktoru S.M.Xitarova kobud və ziyanlı təhrifə görə tam məsuliyyət daşıyır.

Bir sovet yazıçısı kimi kitabın tərtibçisi və redaktoru Xitarovanın yuxarıda göstərilən kobud hərəkəti, bizim ictimai və partiya etikamıza yaraşmayan hərəkəti haqda sizə məlumat verməyi özümə borc bilirəm.

Poemanın tam orijinalını və onun rus nəşrini sizə tanışlıq üçün təqdim edirəm.

*"26-lar" poemasının müəllifi*
*Səməd Vurğun" [1, s.268, 269].*

Şairin məktublarını oxuyanda açıq-aşkar hiss edilir ki, dövrün ideoloji təsirlərinə baxmayaraq, o yalnız şeir üçün, yüksək poeziya üçün yaranmışdır. Güclü ilhamla istiqamətlənən lirik vüsət, poetik söz S.Vurğunda hər cür vəziyyətdə öz təbii axarı ilə baş alıb gedir, bütün hallarda ona doğmalıq gətirir.

Səməd Vurğun 1945-ci ilin noyabrında Mircəfər Bağırova ünvanladığı daha bir məktubda yazır: "...Biz görürük ki, bütün pyes boyu Şahbazın varlığında materialist başlanğıcla qismən idealist baxışlar arasında daxili mübarizə gedir. Bu, realizmin ədəbiyyatdakı roludur. Hər bir şəxs, istər filosof olsun, istərsə sıravi, cəmiyyətdə yalnız xarici qüvvə və xarici ziddiyyətlərlə mübarizədə inkişaf etmir, habelə öz psixologiyasının, mənəviyyatının, hətta ideologiya və dünyagörüşünün ziddiyyətləri ilə mübarizədə inkişaf edir.

Mən filosof deyiləm və bir çox fəlsəfi məsələlərdə fəlsəfə biliciləri ilə mübahisə edə bilmərəm. Amma mənə elə gəlir ki, heç bir kəsin mənəvi aləmində mütləq təmiz şəkildə ideologiya mövcud deyildir. İnsanın ideoloji inkişafı onun daxili ziddiyyətlərinin mübarizəsi yolu ilə gedir" [1, s.257].

Səməd Vurğun ictimai məktublarında həyata, adamlara çox yaxındır. O qədər yaxındır ki, ən xırda hərəkət, kiçicik bir psixoloji haləti əks etdirən hər şey məktublarında əks olunur. Səməd Vurğunun ictimai məktubları humanizm üstündə qurulmuşdur. Ağlasığmaz sadəlik, insanlara kömək etmək istəyi onun ictimai məktublarının əsasıdır:

*"Mir Mehdi Seyidzadəyə.*
*13 sentyabr 1935-ci il.*

Yoldaş Seyidzadə!

Yoldaş Nasirin "Kənddə inqilab" adlı əsərinin oxuması lazımdır. Məncə, cocuqlar üçün müəyyən işlərə və köməyə yarayar. Sərəncamsız buraxmayın.

*Səməd Vurğun" [1, s.231].*

Mənəvi sərvət olmaq etibarilə Səməd Vurğunun ictimai məktubları insanda yaradıcı fikirləşmək, dərindən düşünmək və hiss etmək qabiliyyəti tərbiyə edir, bizi şəxsi təcrübə çərçivəsindən





keçmiş, indi və gələcək haqqında geniş və zəngin təsəvvürlər aləminə istiqamətləndirir. Onun bu məktubları sağlam və kamil estetik düşüncə tərzinin təşəkkülü üçün real və əlverişli zəmin yaradır.

Tanınmış fransız yazıçısı Lui Araqon yazırdı: "Mən Səməd Vurğunun Sovet Yazıçılarının II Ümumittifaq qurultayında nitqini dinlədikcə, dünyada baş verən böyük dəyişikliklər barədə fikirləşirdim.

O, Şərqin zəngin, poetik ənənələrinə arxalanaraq sovet ədəbiyyatının ən mühüm problemlərini qoyur və şərh edirdi. O, necə də böyük bir ilham və ehtirasla böyük sovet şairlərini epik poemalar və mənzum romanlar yaratmağa ruhlandırırdı.

Səməd Vurğun müasir dünya ədəbiyyatının iftixarıdır" [1, s.165].

Səməd Vurğunun bütün fərdi – şəxsi, ictimai – ümumi məktublarında bir düzgün istiqamət, mehribançılıq, sönməz bir işıq var. Şairin müdrikliyindən, mehribançılığından, torpağa bağlılığından, milli vüqar hissindən yaranıb bu işıq. Kədərlə, qəmlə, bəzən haqsızlıqlarla rastlaşan zaman ürəyindən qığılcımlanıb bu sönməz işıq. Bu da dünyanın qədirbilən insanların və Azərbaycan xalqının yaddaşına həkk olunub, poetikləşib.

"Azərbaycan xalqı onun son şəklini – ağsaçlı, qəribə, xoş təbəssümlü, kədərlə sevinc qarışığı hopmuş, sağalmaz xəstəliyin ürəyin müqəddəs nurunu silə bilmədiyi gözəl üzlü şəklini daha çox əziz tutur. Adama elə gəlir ki, Vurğun bu şəkildə 50 yaş yox, neçə min il yaşayıb. Müəllimi Zərdüştün yanında yeniyetmə oğlan olub. Dədə Qorqudun boylarına dolanlardan biri də o olub. Qopuza, saza tel düzənlər ondan məsləhət alıb. Yollar yorğunu olub; Təbrizdən Dərbəndə, Şuşadan Qazaxa, Gəncədən Naxçıvana, Bakıdan Səraba... Zərdüştdən Qorquda, Qorquddan Vaqifə, Vaqifdən Ələsgərə, Ələsgərdən Üzeyir bəyə, Sabirə... zaman-zaman, yer-yer keçilən bu məsafə Səməd Vurğun yaddaşının tutumu və ya heç olmasa bu tutumun böyük bir hissəsi deyilmi?" [4, s.64].

Göründüyü kimi, Səməd Vurğunun fərdi – şəxsi, ictimai – ümumi məktubları nə təbiətinə və nə də varlığına heç bir biçimdən uyğun gəlməyən bu növ sərsəm söz atmacaları, yersiz və kobud böhtanlar onun nailiyyətlərini, xalqla əlaqəsini nəinki azaltmır, əksinə, onu yeni zirvələrə qaldırır. Həmçinin, onun şöhrətini azaltmaq istəyən bir qrup üzdəniraq "nəzəriyyəçilərdən" fərqli olaraq etibarlı pərəstişkarlarının sayını və ümumdünya şöhrətini getdikcə daha da artırır, dövrün ən qabaqcıl, aparıcı, sözün düzgün mənasında əsl sənətkar olduğunu sübuta yetirir.

## ƏDƏBİYYAT

1. Ellər Vurğunu. Vurğun ömrü məktublarda. Bakı, AAMM nəşriyyatı, 1996.
2. Səməd Vurğun. Əsərləri: Altı cilddə, VI c. Bakı, Azərbaycan EA nəşriyyatı, 1972.
3. Səməd Vurğun. Xavərə. Bakı, "Adiloğlu", 2003.
4. Vəliyev K. Sözün sehri. Bakı, "Yazıçı", 1986.

## CONTENT FEATURES OF INDIVIDUAL AND PUBLIC LETTERS OF SAMAD VURGHUN

*Summary*

There is a need for studying the factors affecting human spirituality in the result of transformation of global processes and external ideas to our national-moral values in modern period. In this term the object of individual-personal and public letters by Samad Vurghun is human morality and for this reason their analysis is actual for modern period. By analysing the content of these letters, important sides for humanity are highlighted in the article.

# СОДЕРЖАТЕЛЬНЫЕ ОСОБЕННОСТИ ЛИЧНЫХ И ОБЩЕСТВЕННЫХ ПИСЕМ САМЕДА ВУРГУНА

***Резюме***

В данный период в результате трансформации наших национальных нравственных ценностей под влиянием глобальных процессов и чуждых идей ощущается особая потребность анализа факторов, влияющих на нравственные качества человека. С этой точки зрения анализ личных и общественных писем Самеда Вургуна особенно актуален для настоящего времени как объект нравственных человеческих качеств. В статье при анализе содержания личных и общественных писем Самед Вургуна, освещены имеющиеся в них значимые по гуманизму общечеловеческие качества.